# "Sən bizim ellərin ruhuna bir bax..."

Tale elə gətirib ki, mənim Binəqədidə çalışdığım illər Binəqədi Rayon İcra Hakimiyyətinin şöbə müdiri, Yeni Azərbaycan Partiyası rayon təşkilatının sədri Ramiz Göyüşovla sıx ünsiyyətdə keçib. Bu günlərdə onun "Sən bizim ellərin ruhuna bir bax" adlı kitabını oxuyandan sonra onu həm də publisist kimi yenidən kəşf etmişəm.

Haqqında bəhs etdiyi insanları, onların sənət aləmini, şəxsi və ictimai keyfiyyətlərini təhlil edərək daha orijinal və obrazlı formada oxucuya təqdim etməklə həm də öz aləmini, şəxsi keyfiyyətlərini, ən başlıcası poetik-publisistik xarakterini tamamlayan iç dünyasını da oxucuya təlqin edir.

Onun kitabının Səməd Vurğunla başlaması da təsadüfi deyildir. Bu günlər – əski Sovetlər dövrünü təftişin dəb olduğu bir dövrdə bu görkəmli Xalq şairinin də "bostanına daş atanlar" çoxalmış, nəinki Azərbaycanın, hətta bütövlükdə Sovet ədəbiyyatının tanınmış simalarından biri olaraq ona yeni prizmadan, bir qədər də ədalətsiz yanaşmalar hiss edilməkdədir. Bu baxımdan kitabın Səməd Vurğun şəxsiyyətini və sənətini tamamlayan bir yazısıyla başlaması, hətta onun məşhur şeirindən bir misranı əsərə başlıq verməsi məhəlli təəssübkeşlik yox, vətəndaş mövqeyi olaraq çox dəyərli və təqdiredicidir.

Unutmayaq ki, milli ədəbi proses həmişə irəliyə doğru hərəkətində həyata, gerçəkliyə güvənən və xalqa, zamana xidmət eləyən ədəbiyyatı izləməkdə, təhlil və təbliğ etməkdədir. Çünki bu ədəbiyyat öz dövrünü həmin mərhələnin real imkanları çərçivəsində elə o dövrün irəli sürdüyü vacib ictimai məsələlərə cavab verərək təsvir edir. Bəşər səadəti uğrunda bədii fikrin axtarışları azad və xoşbəxt insan, xalq və vətən taleyi ictimai-humanitar elmi-filoloji fikirdə axtarışlarla vəhdət təşkil edir, deyilən hər bir söz, fikir, ideya ona yeni məzmun, yeni təravət verir, həmişəyaşarlığı ilə yadigara çevrilir.

Bu mənada Səməd Vurğun sənətkarlığını daim öyrənməyə dəyər, həm də ona görə ki, müasir poeziyamız üçün onun ədəbi külliyyatında ciddi sənətkarlıq bazası vardır. Onun poeziyasında dilin məna və emosiya zənginliyi dediklərimizə bariz nümunə ola bilər. Bu gün ədəbi dilimizin bərbadlaşdığı bir vaxtda onun poetikasının əhəmiyyəti böyükdür.

Poetik və publisistik məna yükü çox dərin olan "Sən bizim ellərin ruhuna bir bax" kitabında müəllif həm də xalq ruhunun poetik ifadəsinin korifeylərindən olan Hüseyn Arif, xüsusi poetik istedadı ilə son iki əsrin qovuşuğunda baş verən ədəbi-estetik transformasiyalar mərhələsinin ustad şairlərindən Nəriman Həsənzadə, son dövr istiqlal poeziyamızın yaradıcılarından Zəlimxan Yaqub və onun əvəzsiz poetik nümunələr həsr etdiyi ulu öndərimiz Heydər Əliyev, eləcə də özünəməxsus xarakteri və ədəbi üslubları ilə seçilən Davud və Eldar Nəsiblər, xalq ruhuna köklənmiş poeziyası ilə, həm də mahnılar şairi kimi tanınan Dəmir Gədəbəyli və onun yoluna nəzər saldığı professor Rəhim Mehdiyev, müasir poeziyamızın istedadlı nümayəndələrindən Taleh Həmid, Vətənimizin irfan məskənlərindən olan İncə dərəsinin incə ürək sahiblərindən Məmməd Dəmirçioğlu, İbrahim İlyaslı, Fəridə Ləman, Məmməd İlqar, nəhayət, müasir ədəbi tənqidimizin ciddi simalarından olan Rüstəm Kamal, doğma Şuşamızın ətrini özündə ehtiva edən gözəl ziyalı Pərviz Axundzadə haqqında yazılar da təkcə coğrafi zənginliyi ilə deyil, həm də səmimi publisistik ştrixləri ilə bol olan qiymətli publisistik əsərlər olaraq ruhumuzu oxşayır, irfani mədəniyyətin yeni prizmadan dəyərləndirilməsi təsiri bağışlayır.




Bu cür əsərlər müasir dövrdə, milli dəyərlər sisteminin tarixi transformasiyası baxımından çox gərəkli və əhəmiyyətlidir.

Kitaba ön söz yazan millət vəkili, akademik Nizami Cəfərov yazır, "Mən həmişə bu fikirdə olmuşam ki, insan müxtəlif sahələrdə nə qədər böyük qabiliyyət göstərsə də, uğurlar qazansa da, ədəbiyyata, incəsənətə laqeyddirsə, onun şəxsiyyəti mükəmməl sayıla bilməz. Çünki ədəbiyyata, incəsənətə məhəbbət insanın mənəvi kamilliyinin birbaşa göstəricisidir".

Bizcə, bu fikirləri kitabın müəllifinə də şamil edən akademik öz qeydlərində çox haqlıdır. Çünki görüb-götürdüyümüz tanınmış simalar, tarixi hadisələr, baş verən ictimai proseslər haqqında qeydlər aparmaq, onları publisistik materiala çevirərək nəşr etdirmək təkcə onların ruhuna ehtiram əlaməti deyil, sözün geniş mənasında əsl fəal vətəndaşlıq mövqeyidir.

**Həsən BAYRAMOV,**
**Bakı Dövlət Universitetinin dosenti, fəlsəfə doktoru,**
**Pedaqoji və Sosial Elmlər Akademiyasının akademiki.**